# *Şahlar MƏMMƏDOV:* "Forumun Azərbaycan dili və ədəbiyyatı tarixində böyük əhəmiyyəti var"

**"Srağagündən başlayan və ölkəmizdə ilk dəfə keçirilən forumun Azərbaycan dili və ədəbiyyatı tarixində böyük əhəmiyyəti var. Çıxışlardan da göründüyü kimi, forumda ciddi məsələlər müzakirə olunur".**

Bunu AZƏRTAC-a Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin şöbə müdiri Şahlar Məmmədov söyləyib.

"Ümid edirik ki, Azərbaycan Dili və Ədəbiyyatı Forumunda tezis şəklində səsləndirilən təkliflər "Azərbaycan mədəniyyəti-2040" Dövlət Proqramında əksini tapacaq. Bütün bu təkliflərin həyata keçməsində forumun çox böyük rolu olacaq. Forumda həmçinin bir çox problemlər səsləndirildi. Əminik ki, panel iclaslarında bu məsələlər müzakirə olunacaq, ən vacib məsələlər üzə çıxarılacaq, ortaq nəticəyə gəlinəcək. Bütün bu məsələlər dilin üzərində bərqərar olur. Ona görə biz daha çox çalışmalıyıq ki, dillə bağlı məsələlərə, xüsusən tərcümə, kitab nəşri, onların yayılması, kitabxanaların fəaliyyəti ilə bağlı məsələlərə çox ciddi şəkildə fikir verək. Bütün bunlara nail olunarsa, gələcəkdə bizi böyük uğurlar gözləyir", - deyə Ş.Məmmədov vurğulayıb.

Azərbaycan.- 2023.- 3 sentyabr.- S.8